

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 89 (21.241)

7 may 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 6 may tarixli Sərəncamı ilə səhnə fəaliyyəti ilə bağlı bir qrup aparıcı incəsənət xadiminə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilmişdir. Mükafat alanlar arasında Naxçıvan Muxtar Respublikasının incəsənət xadimləri də vardır:

Babayev Məmmədəli Şükür oğlu
Canbaxşiyev Səməd Canbağış oğlu
Cəfərov Anar Elşad oğlu
Xudiyeva Nəzakət Əli qızı
Nağıyev Elçin Nağı oğlu
Nəbiyev Cəbrayıl Fərrux oğlu
Novruzov Əfsər Dilavər oğlu
Tarverdiyeva Müşfiqə Xıdır qızı

*Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatında ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə elmi-praktik konfrans keçirilib.*

## Dahi rəhbərin Azərbaycan naminə gördüyü işlər əsrlər keçsə də, tarixi dəyərini itirməyəcək



Tədbiri giriş sözü ilə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev açıb və "Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusudur" mövzusunda məruzə edib.

Bildirilib ki, hələ sağlığında bütün dünya azərbaycanlıların ümummilli liderinə çevrilmiş Heydər Əliyev müstəqil Azərbaycanın və onun dövlətçiliyinin banisidir. Qürurverici haldır ki, görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi-mənəvi irsi təkcə xalqımızın deyil, bəşəriyyətin zəngin xəzinəsinə çevrilib. Məhz bu amillərə görə müasir Azərbaycan tarixini ümummilli lider Heydər Əliyevin həyat və çoxsahəli zəngin ictimai-siyasi, dövlətçilik fəaliyyətindən ayrı təsəvvür etmək mümkün deyil.

Vurğulanıb ki, dahi şəxsiyyət Heydər Əliyevin adı Azərbaycan tarixinə müstəqilliyimizin memarı, dövlətçiliyimizin xilaskarı kimi yazılıb. Ümummilli lider Azərbaycançılıq ideyasının yaradıcısı kimi Vətənin müstəqilliyi, xalqın milli-mənəvi tərəqqisi, Azərbaycan iqtisadiyyatının, səhiyyəsinin, təhsilinin inkişafı istiqamətində möhtəşəm tədbirlər həyata keçirib. Ümumiyyətlə, ulu öndərin həyatı və fəaliyyəti Azərbaycançılıq məktəbidir. Hər yeni gələn nəsil bu böyük məktəbdən Vətənin, xalqın inkişafı naminə faydalanır və daim faydalanacaqdır. Ulu öndər Heydər Əliyevin dahiliyi, siyasi idarəçilik təcrübəsi, dövlətçiliyin təməl prinsiplərinə dərindən bələd olması və fəaliyyəti boyu həmin prinsiplərə istinad etməsi bu fenomen şəxsiyyətin uzaqgörənliyini, müdrikliyini, ekstremal vəziyyətdə doğru qərar qəbul etmək bacarığını və qələbələrini şərtləndirən amillərdən olub. Bu gün müstəqil Azərbaycan istər sosial-iqtisadi, istərsə də mədəni inkişaf baxımından dünyanın qüdrətli dövlətləri sırasındadır. Bu, ulu öndər Heydər Əliyevin "Azərbaycan dünyaya Günəş kimi doğacaq" arzusunun ölkə rəhbəri cənab İlham Əliyev tərəfindən həyata keçirilməsinin əyani göstəricisidir.

Sonra Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı İdarə Heyətinin üzvləri Vaqif Cabbarovun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları Nüsrət Həsənovun, Yeganə Məmmədovanın, Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin sədri Orxan Məmmədovun müxtəlif mövzularda çıxışları olub.

Sonda bir qrup gənc partiya sıralarına üzv qəbul edilib, bir qrup gəncə isə üzvlük vəsiqələri verilib.

## Ümummilli lider Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

*Mayın 6-da Yeni Azərbaycan Partiyası (YAP) Naxçıvan Şəhər Təşkilatı ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Ümummilli lider Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı" mövzusunda elmi-praktik konfrans keçirib.*



Konfransda YAP Naxçıvan Muxtar Respublika Təşkilatı İdarə Heyətinin üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Ülviyyə Həmzəyeva "Heydər Əliyev və Naxçıvan" mövzusunda çıxış edərək bildirdi ki, 1923-cü il may ayının 10-da qədim Naxçıvanda dünyaya göz açan görkəmli dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyev həyatının bütün dövrlərində xalqı və dövləti üçün xidmət göstərməyi ömrünün başlıca qayəsi hesab edib, Vətənə, xalqa sədaqətlə və yorulmaz xidmətin müstəsna nümunəsini yaradıb. 1969-cu ildə Azərbaycan böhranlı günlərini yaşayanda, 1993-cü ildə dövlət müstəqilliyimiz məhvə sürüklənəndə dahi rəhbər Heydər Əliyev xilaskarlıq missiyası ilə Azərbaycanı bütün sınaqlardan qətiyyətlə çıxardı.

"Bu mənada ulu öndərin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi, çətin günlərdə muxtar respublikaya rəhbərlik etdiyi dövr Azərbaycanın müstəqillik tarixində xüsusi mərhələ təşkil edir", – deyən Ülviyyə Həmzəyeva qeyd etdi ki, dahi şəxsiyyətin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi illər Naxçıvanın hüquqi statusunun möhkəmləndirilməsi kimi mühüm bir dövrü əhatə edir. Böyük öndər Naxçıvanın təhlükəsizliyini uğurlu diplomatik gedişləri və mühüm hərbi-siyasi addımları ilə təmin etdi, ərazi bütövlüyünü qətiyyətlə qorudu. Məhz ümummilli liderin təşəbbüsü ilə 1995-ci ildə qəbul olunan Azərbaycan Respublikasının Konstitusiyasında Naxçıvan Azərbaycanın tərkibində muxtar dövlət elan edildi, 1998-ci ildə Naxçıvan Muxtar Respublikasının Konstitusiyası qəbul olundu.

YAP Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərli "Ümummilli lider Heydər Əliyevin hakimiyyətinin birinci dövründə Naxçıvan Muxtar Respublikasında iqtisadi yüksəliş" mövzusundakı çıxışında bildirdi ki, ulu öndərin bütün həyatı və fəaliyyəti Naxçıvanla daim sıx bağlı olub. Belə ki, Azərbaycan KP MK-nın birinci katibi olduğu illərdə ulu öndər Heydər Əliyev Naxçıvana 5 dəfə gəlib, hər səfərində sosial-iqtisadi inkişafla bağlı məsələləri araşdıraraq muxtar respublika sənayesi və kənd təsərrüfatının aktual problemlərini diqqət mərkəzində saxlayıb, onların təcili həlli üçün müvafiq qərarlar qəbul edib. Nəticədə, Naxçıvan 1970-1980-ci illərdə özünün sosial-iqtisadi yüksəliş dövrünü yaşayıb, qısa müddətdə burada intensiv inkişafa nail olunub.

Naxçıvan Muxtar Respublikasında sənaye məhsulu istehsalının ümumi həcminin 1985-ci ildə 1970-ci ilə nisbətən 4,6 dəfə artdığını bildirən Elman Cəfərli dedi ki, həmin illərdə iqtisadiyyatın bütün sahələrinin inkişafına 900 milyon manat sərmayə yatırılıb, onun orta illik həcmi 60 milyon manat təşkil edərək əvvəlki 10 ilin göstəricisindən 2,9 dəfə çox olub. Muxtar respublika iqtisadiyyatının müxtəlif sahələrini əhatə edən 783 milyon manatlıq əsas fondlar istifadəyə verilib. Həmin illərdə muxtar respublikada tikilmiş 21 sənaye müəssisəsinin 16-sı iri müəssisələr idi. 1970-1985-ci illər ərzində kənd təsərrüfatının bütün əsas məhsulları üzrə əhəmiyyətli artım müşahidə olunub. Naxçıvanda su təsərrüfatı problemlərinin həllinə 119 milyon manat vəsait yönəldilib, 4 böyük su anbarı, 10-a yaxın sututar tikilib istifadəyə verilib, su anbarlarının ümumi sayı 22-yə çatdırılıb.

Sonra Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin İqtisadiyyat və maliyyə şöbəsinin müdiri Tural Haqverdiyevin "Ulu öndər Heydər Əliyevin iqtisadi inkişaf strategiyası və Naxçıvanda kənd təsərrüfatının inkişafı", Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin Dövlət əmlakının idarə olunması və özəlləşdirilməsi şöbəsinin müdiri Elnur İbrahimovun "Ümummilli lider Heydər Əliyevin iqtisadi yüksəliş konsepsiyası və Naxçıvanda sənayenin inkişafı" mövzularında çıxışları oldu.

Çıxışlarda bildirildi ki, əsası ulu öndər tərəfindən qoyulan və uğurla həyata keçirilən aqrar islahatlar muxtar respublikada 2000-ci ildə başa çatıb, aqrar sahədə yeni özəl qurumlar yaradılıb. Bütövlükdə, 205 kənddə olan 132 təsərrüfatda torpaq islahatları aparılıb, 70 min 758 ailəyə və ya 241 min 46 nəfərə torpaq sahəsi verilib. Bu gün vaxtilə aqrar region kimi tanınan Naxçıvan Muxtar Respublikası ümummilli lider Heydər Əliyevin banisi olduğu sosial-iqtisadi inkişaf strategiyası nəticəsində intensiv şəkildə sənayeləşən bölgəyə çevrilib. Əgər 1989-cu ildə muxtar respublikada 40 sənaye müəssisəsi fəaliyyət göstərirdisə, 2014-cü ilin sonuna bu müəssisələrin sayı 439-a çatıb. Həmin müəssisələr tərəfindən 352 növdə məhsul istehsal olunur ki, bunun 330 növü sənaye məhsullarıdır. İstehsal olunan məhsullar xarici ölkələrə də ixrac olunur.

Qeyd olundu ki, ulu öndər Heydər Əliyevin təməlini qoyduğu və bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən sosial-iqtisadi inkişaf strategiyası nəticəsində əldə olunan nailiyyətlər Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının daha böyük uğurlar qazanacağına zəmin yaradır.

Elmi-praktik konfransda məruzələr mövzulara dair slaydlarla müşayiət olundu.

Tədbirin sonunda "Ümummilli lider Heydər Əliyev və Naxçıvan" adlı film nümayiş etdirildi.

*Mayın 6-da Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində "Heydər Əliyev lektoriyası"nın növbəti məşğələsi keçirilmişdir. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə "Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu" mövzusunda keçirilən məşğələni komitənin sədri Asəf Məmmədov açmışdır.*

## "Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu" mövzusunda lektoriya



AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev məruzə ilə çıxış edərək bildirmişdir ki, ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərliyinin hər iki dövründə Azərbaycanı düşdüyü ağır vəziyyətdən xilas etmiş, ölkəmizi inkişaf yoluna çıxarmışdır.

Qeyd olunmuşdur ki, ulu öndər Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbər seçilənədək ölkəmiz keçmiş SSRİ məkanında ən geridə qalmış respublikalardan biri idi. Dahi liderin həyata keçirdiyi qətiyyətli və mühüm tədbirlər nəticəsində Azərbaycan sürətli inkişaf yoluna qədəm qoymuş, nəticədə, ölkəmiz keçmiş ittifaqın inkişaf etmiş ölkələrindən birinə çevrilmişdir. Əldə olunmuş müsbət nəticələr bütün sahələri əhatə etmiş, gələcəkdə Azərbaycanın müstəqil bir dövlət kimi formalaşmasında ilkin təməllər atılmışdır.

Vurğulanmışdır ki, 1990-1993-cü illərdə respublikaya rəhbərlik edənlərin səriştəsizliyi ucbatından ölkəmizdə özbaşınalıq yaranmış, daxili sabitlik pozulmuş, vətəndaş müharibəsinə rəvac verilmişdi. Həmin dövrdə Naxçıvanda yaşayıb fəaliyyət göstərən ümummilli lider Heydər Əliyev dövlətçiliyimizin və müstəqilliyimizin qorunub saxlanılması üçün misilsiz xidmətlər göstərmişdir. Torpaqlarımızın 20 faizinin işğal edildiyi, bir milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkünə çevrildiyi bir zamanda xalqımız üzünü müdrik xilaskarına – ulu öndər Heydər Əliyevə tutmuşdur. Çünki belə bir vəziyyətdə ölkəni, dövlətçiliyimizi və müstəqilliyimizi təhlükədən yalnız Heydər Əliyev dühası qurtara bilərdi. Xalqın çağırışlarını nəzərə alan ümummilli lider Heydər Əliyev 1993-cü ilin 15 iyun tarixində yenidən siyasi hakimiyyətə qayıtdı. Dahi şəxsiyyətin hakimiyyətə qayıdışı ilə torpaqlarımızın işğalına son qoyulmuş, ölkədə əmin-amanlıq, siyasi sabitlik yaradılmış, müstəqilliyimiz möhkəmləndirilmişdir. Tarix üçün çox qısa zamanda Azərbaycan öz iqtisadi, siyasi, mədəni gücü ilə dünya dövlətləri sırasında öz layiqli yerini tutmuşdur. Buna görə də müstəqil Azərbaycan dövləti var olduqca, xalqımızın xoşbəxt gələcəyini təmin edən ümummilli lider Heydər Əliyevin adı qəlbimizdə əbədiyaşar dahi kimi yaşayacaqdır.

Sonra Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin Ümumi şöbəsinin baş inspektoru, gömrük xidməti kapitanı Nilufər Cəfərli Heydər Əliyev yolu gedərək günü-gündən inkişaf edən Azərbaycanın son illərdə əldə etdiyi uğurlardan danışmışdır.

Sonda ümummilli lider Heydər Əliyevə həsr olunmuş "Dahi Azərbaycanlı" filmi nümayiş etdirilmişdir.

**Xəbərlər şöbəsi**



## Azərbaycanın özü qədər əbədi

# Ana dilimizin hamisi

***Hər bir xalqın elə milli-mənəvi dəyərləri vardır ki, onun qorunması, zənginləşdirilməsi, inkişaf etdirilməsi cəmiyyətdə tutduğu mövqeyindən, ixtisasından, vəzifəsindən asılı olmayaraq, hamının və hər kəsin vətəndaşlıq borcudur. Xalqımızın mədəniyyəti və dili bu qəbildən olan milli sərvətlərimizdəndir.***

Azərbaycan dili qədim və zəngin tarixə malik olan türk dili ailəsinin Oğuz qrupuna daxildir. Uzun bir tarixi yol keçmiş Azərbaycan dili özünəməxsus dil qanunları ilə cilalanmış, zəngin söz ehtiyatına, kamil qrammatik quruluşa, yüksək səviyyəli yazı normalarına malik müstəqil dil kimi fəaliyyət göstərir:

*Mənim ana dilim Azərbaycandır,*
*Əvvəli "Azər"dir, axırı "can"dır.*
*Neçə minilliyin səddini aşıb,*
*Neçə ölkə gəzib, sərhəd dolaşıb.*
*İndi çox mükəmməl dövlət dilidir,*
*Hökumət dilidir, millət dilidir!*

Hər bir xalqın keçdiyi tarixi yol, onun mədəni səviyyəsi, ilk növbədə, onun dilində öz əksini tapır. Dilini itirən xalq məhvə məhkumdur. Gündən-günə zənginləşən Azərbaycan dili uzaq keçmişdən bu günə qədər yaşayan Azərbaycan xalqının milli sərvətlərindən biridir. Ana dilimiz yalnız ünsiyyət vasitəsi deyil, həm də xalqın dünyagörüşünün, düşüncə tərzinin, ümumən mənəvi varlığının ifadə vasitəsidir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hazırlayıb həyata keçirdiyi dil siyasəti də onun dövlət quruculuğu siyasətinin əsas tərkib hissəsidir. Ölkəmizə rəhbərliyinin birinci dövründə ulu öndər Heydər Əliyev ana dilinə – Azərbaycan xalqının milli dilinə böyük əhəmiyyət vermiş, bu dilin Əsas Qanunda – Konstitusiyada dövlət dili, millət dili kimi xüsusi maddədə göstərilməsinə nail olmuşdur.

Böyük şəxsiyyət həmin illərdə ana dilimizin rəsmiliyini təmin etmiş, doğma diyarımızda gəncliyin ana dilində təhsilinə üstünlük vermiş, anadilli mətbuatımızın inkişafına geniş imkanlar yaratmışdır.

Ulu öndər Heydər Əliyev geniş düşüncəyə, yüksək elmi və ədəbi təfəkkürə, ən başlıcası isə yüksək natiqlik məharətinə malik olan nadir bir şəxsiyyət idi. Bu qüdrətli şəxsiyyət həmişə milli mənafeyin bəşəri mənafelərlə birləşdirilməsinə böyük əhəmiyyət vermiş, ana dilimizin saflığı məsələsinə daim diqqət yetirmişdir.

Dahi rəhbərin belə bir fikri bu gün də dilimizin gözəlliklərini qorumaq və yaşatmaq baxımından hər birimiz, eləcə də yazıçı və şairlərimiz üçün bir həyəcan təbilidir: ***"Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir... Azərbaycan ədəbi dilinin saflığına, kütlələrin nitq mədəniyyətinə daim qayğı göstərilməlidir".***

Rus dilinin hakim olduğu bir vaxtda müxtəlif rəsmi yığıncaqlarda və məclislərdə Azərbaycan dilində danışmaqdan çəkinməyən dahi rəhbər praktik olaraq ana dilinin ictimai-siyasi mövqeyinin yüksəlməsinə bilavasitə təsir göstərmiş, aydın, rabitəli, rəvan və səmimi nitqi ilə başqalarına nümunə olmuşdur. Bu mənada O həm də məharətli natiq idi. Nitqinin dəqiqliyi, məntiqiliyi, aydınlığı, ifadəliliyi, zənginliyi, səmimiliyi və xəlqiliyi Onun natiqlik məharətinin əsas göstəricilərindən idi. Bu natiqlik məharəti ana dilinə xidmətin, ona sədaqətli olmağın canlı nümunəsi idi. Hər bir insanın çoxlu dil bilməsi onun əsas göstəricisi olsa da, öz ana dilini mükəmməl bilməmək o kəs üçün böyük nöqsan sayılır. Elə ona görə də ulu öndər: ***"Öz ana dilini bilməyən adamlar şikəst adamlardır!"*** – deyirdi.

Öz saflığını, təmizliyini, zənginliyini qoruyaraq bu günümüzə qədər gələn Azərbaycan dili haqqında, onun qorunması, fəaliyyət dairəsinin genişlənməsi, ana dilimizin rəsmi statusunun təminatı və tətbiqinin təkmilləşdirilməsi ilə bağlı ulu öndər Heydər Əliyev mühüm tədbirlər həyata keçirmiş, dillə bağlı müxtəlif qərar və sərəncamlar imzalamışdır.

Azərbaycan dilinin 1995-ci ilin 12 noyabrında qəbul edilmiş Konstitusiyanın 21-ci maddəsində təsbit edilməsi, sonrakı illər ərzində dil məsələsinin ayrı-ayrı konkret cəhətlərinə dönə-dönə qayıdılması dahi şəxsiyyətin bu məsələyə nə qədər böyük önəm verməsinin parlaq nümunəsidir:

*– "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2001-ci il tarixli Fərmanı;*

*– "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2001-ci il tarixli Fərmanı;*

*– "Azərbaycan Respublikasında dövlət dili haqqında" qəbul edilmiş Qanun (30 sentyabr 2002-ci il);*

*– "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2 yanvar 2003-cü il tarixli Fərmanı.*

Ana dilimizlə bağlı imzalanmış bütün bu tarixi sənədlər müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərindəndir.

Xüsusi olaraq qeyd edilməlidir ki, xalqımızın böyük oğlu Heydər Əliyevin 2001-ci ildə imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman çox böyük tarixi əhəmiyyət daşıyan mühüm siyasi hadisə idi. Görkəmli dövlət xadimi Heydər Əliyevin yürütdüyü dil siyasəti nəticəsində bütün dövlət və qeyri-hökumət təşkilatlarında, indiyə qədər Azərbaycan dilindən istifadə etməmiş qurumlarda dövlət dilinə, sözün həqiqi mənasında, yeni həyat bəxş edildi. Latın qrafikasına keçid prosesi tamamilə yekunlaşdırıldı.

Azərbaycan dilinin təkcə ölkəmizdə deyil, dünyada tanınması və şöhrətlənməsi üçün ulu öndərin xidmətləri olduqca böyükdür. Dünya azərbaycanlılarının Bakıda toplaşmış nümayəndələri qarşısında əzəmətli bir çıxış edən böyük öndər Heydər Əliyev Azərbaycan dilinə sevgisini, ona qəlbən vurğunluğunu təntənəli şəkildə nümayiş etdirdi. Ümummilli liderimizin bu çıxışı Vətəndən kənarda yaşayan dildaşlarımızı Azərbaycan dili ilə qürur duymağa səsləyən möhtəşəm bir çağırış, milli mənsubiyyət və Azərbaycançılıqla bağlı tarixi bir monoloq idi:

*"Əziz həmvətənlər!*

*Öz ürəyimdən gələn fikirləri bir daha bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası Azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq. Azərbaycan dilinin inkişafı haqqında bizim qəbul etdiyimiz geniş qərar məhz bu məqsədi daşıyır. ...Bizim üçün Azərbaycan dili həddindən artıq əzizdir. ...Biz Azərbaycanda Azərbaycan dilinin hakim olmasını, Azərbaycan dilinin getdikcə inkişaf etməsini təmin edəcəyik".*

Bütün ömrü boyu dahi rəhbərin ürəyi Vətən, vətənpərvərlik, Azərbaycan dili eşqi ilə döyünüb:

*İnsanlara çıraq etdi*
*Hər gününü, hər ilini.*
*Sevən olmaz onun qədər*
*Öz elini, öz dilini.*

Müasir beynəlxalq inteqrasiya şəraitində ana dilimizin qorunması, əsas mənəvi dəyər kimi onun toxunulmazlığı və işləkliyinin təmin edilməsi bir millət və dövlət kimi bizim ən başlıca vəzifəmizdir. Biz bütövlükdə bu sərvətin qayğısına qalmalı və dilimizi gələcək nəsillərə çatdırmağı bacarmalıyıq. Axı Azərbaycan dili bu gün dünyanın bir çox nəhəng dilləri ilə rəqabətə girə biləcək bir dildir.

Böyük dövlət xadimi Heydər Əliyevin hərtərəfli fəaliyyətinin ən böyük nailiyyətlərindən biri də ana dilimizin dövlət dili kimi hakimliyini təmin etməsi, onun tədrisinin təkmilləşdirilməsi üçün əvəzsiz xidmətlər göstərməsi və bütün dünyada tanıtmasıdır.

"Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 23 may 2012-ci il tarixli Sərəncamı dövlətimizin və onun rəhbərinin ana dilimizin qorunmasına və inkişafına qayğısının Heydər Əliyev nümunəsidir.

Sərəncamda qeyd olunduğu kimi, *"...ölkəmizin zaman-zaman müxtəlif imperiyaların tərkibində yaşamağa məcbur olmasına baxmayaraq, ana dilimiz hətta ən ağır vaxtlarda belə, milli məfkurənin, milli şüurun və milli-mənəvi dəyərlərin layiqincə yaşamasını və inkişafını təmin etmişdir. Bu gün onun qorunması və qayğı ilə əhatə olunması müstəqil Azərbaycanın hər bir vətəndaşının müqəddəs borcudur".*

Bu sərəncam Azərbaycan dövlətinin, ulu öndərin layiqli davamçısı olan cənab İlham Əliyevin ana dilimizlə bağlı qəbul etdiyi ən mühüm hüquqi sənədlərdən biridir. Sənəddə çox haqlı olaraq qeyd edilir: "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin imzaladığı tarixi sənədlər sayəsində ədəbi dilimizin fəaliyyət meydanı daha da genişlənmiş, onun müxtəlif üslublarının potensialı bir daha üzə çıxarılmış, bütünlüklə dil mədəniyyətimiz qarşısında yeni üfüqlər açılmışdır... Bununla yanaşı, son dövrlərdə müasir Azərbaycan ədəbi dilinin tükənməz imkanlarından lazımınca və düzgün istifadə edilməməsi diqqəti çəkir. Ədəbi dilimizin özünəməxsus inkişaf qanunauyğunluqlarına xələl gətirə biləcək yad ünsürlərin üzə çıxarılması və qarşısının alınması istiqamətində mütəxəssislər heç də həmişə çeviklik nümayiş etdirə bilmirlər.

Respublikada dil siyasətinin birmənalı şəkildə formalaşdırılması, ana dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək milli həmrəyliyin göstəricisi kimi beynəlxalq aləmdə rolu və nüfuzunun yüksəldilməsi, ...həmçinin gənc nəslin ana dilinə sevgi və hörmət ruhunda tərbiyə olunması, ədəbi dil normalarına ciddi surətdə əməl edilməsi daim diqqət mərkəzində saxlanılmalıdır".

Azərbaycan Respublikasının dövlət müstəqilliyi qazanmasında, onun elminin, mədəniyyətinin yüksəlməsində, dilimizin hərtərəfli inkişafında və zənginləşməsində müdrik şəxsiyyət Heydər Əliyevin misilsiz xidmətləri vardır. Onun əvəzsiz xidmətlərinin nəticəsidir ki, Azərbaycan dili bu gün özünün tərəqqi və çiçəklənmə dövrünü yaşayır. Azərbaycan dilinin ümumtəhsil və ali məktəblərdə tədrisi məsələsi heç bir zaman indiki qədər diqqət mərkəzində saxlanılmamış və yüksək dəyərləndirilməmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqillik, dövlətçilik idealları üzərində köklənmiş məqsədyönlü, uzaqgörən siyasi kursu, eləcə də millətin mənəviyyat bayrağı, milli mənlik və qürur mənbəyi olan ana dili siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən böyük inam və uğurla davam etdirilir. Bu möhtəşəm siyasət Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da ümummilli liderin sədaqətli davamçısı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən qətiyyətlə həyata keçirilir.

Ulu öndər Heydər Əliyev böyük zəka sahibi, müstəqil Azərbaycanın, Azərbaycançılığın və Azərbaycan dilinin təcrübəli memarı və əsl qurucusudur:

*O, tükənməz zəkasıyla*
*Nur paylayan bir cahandı.*
*Bu müstəqil Azərbaycan*
*Ondan bizə ərməğandır.*

Həmişə, dünyanın hər yerində böyük qürur və iftixarla öyünə bilərik ki, biz Azərbaycan adlı ulu dövlətin xoşbəxt vətəndaşlarıyıq, bu millətə müstəqillik, azadlıq bəxş edən ulu öndərin sədaqətli davamçılarıyıq, çox zəngin və olduqca ulu olan Azərbaycan adlı dilin əbədi daşıyıcılarıyıq.

**Elbəyi MAQSUDOV**
***pedaqogika üzrə elmlər doktoru, professor***

# "Ümummilli lider Heydər Əliyev və Naxçıvan" mövzusunda inşa-yazı müsabiqəsinə yekun vurulub

***Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə keçirilən "Ümummilli lider Heydər Əliyev və Naxçıvan" mövzusunda inşa-yazı müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi olub.***

Mərasimdə Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Piri Nağıyev çıxış edərək muxtar respublikada təhsilə, eləcə də böyüməkdə olan nəslin hərtərəfli inkişafına göstərilən dövlət qayğısından danışıb, inşa-yazı müsabiqəsinin qaliblərini təbrik edib. Qeyd olunub ki, inşa-yazı müsabiqələri şagirdlərin istedadlarının üzə çıxarılmasında və onların özünüifadə qabiliyyətlərinin artırılmasında böyük əhəmiyyət kəsb edir.



Sonra tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş inşa-yazı müsabiqəsinin keçirilməsinin gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində əhəmiyyətindən danışıb. Bildirilib ki, inşa-yazı müsabiqəsinin keçirilməsində məqsəd gənclərin ümummilli lider Heydər Əliyevin fəaliyyətinin Naxçıvan dövrü haqqında biliklərini zənginləşdirməkdən, Naxçıvanın muxtariyyət hüququnun qorunmasında ümummilli liderin gərgin əməyi, muxtar respublikanın blokadasının yarılması və inkişafına yönəldilmiş yorulmaz fəaliyyətini gənclərin gözü ilə təqdim etməkdən ibarətdir.

Aprelin 6-dan keçirilməsinə başlanılan inşa-yazı müsabiqəsində Naxçıvan Muxtar Respublikası ərazisindəki bütün ümumtəhsil məktəblərinin X-XI sinif şagirdləri, o cümlədən Heydər Əliyev adına Hərbi Liseyin kursantları iştirak ediblər. Müsabiqəyə 100-ə yaxın inşa təqdim olunub.

İnşa-yazı müsabiqəsinin nəticələrinə görə, Ordubad şəhər 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi Arzu İsmayılovanın inşa-yazısı birinci yerə layiq görülüb. İkinci yerə Sədərək rayon Sədərək kənd 1 nömrəli tam orta məktəbin X sinif şagirdi Nübar Tağızadənin və Culfa şəhər 3 nömrəli tam orta məktəbin XI sinif şagirdi Zəhraxanım Mirzəyevanın, üçüncü yerə isə Heydərabad qəsəbə tam orta məktəbinin X sinif şagirdi Rəşad Kazımovun, Naxçıvan Qızlar Liseyinin XI sinif şagirdi Həmayıl Yaqubovanın, Şərur rayon Zeyvə kənd tam orta məktəbinin XI sinif şagirdi Rauf Qəhrəmanovun inşa-yazıları layiq bilinib.

Sonra qaliblərə diplomlar və hədiyyələr təqdim edilib.

**Xəbərlər şöbəsi**

## Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş sərbəst güləş üzrə muxtar respublika çempionatına start verilmişdir

*Mayın 6-da Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş sərbəst güləş üzrə muxtar respublika çempionatının açılış mərasimi keçirilmişdir.*





Tədbirdə Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədri Azər Zeynalov çıxış edərək demişdir ki, ümummilli liderimiz Heydər Əliyev ölkəmizə rəhbərliyi dövründə idmanın inkişafını diqqətdə saxlamış, bu sahədə ardıcıl tədbirlər görülmüşdür. Azərbaycanın bütün bölgələrində idman kompleksləri, meydançalar tikilib istifadəyə verilmiş, idman-sağlamlıq mərkəzləri yaradılmışdır. Hazırda ulu öndərin müəyyənləşdirdiyi idman siyasəti ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Ölkəmizdə idman yeni inkişaf mərhələsinə yüksəlmiş, Azərbaycan dünyanın nüfuzlu idman mərkəzinə çevrilmişdir. Yaradılan müasir idman infrastrukturu, idmançıların dünya və Avropa çempionatlarında, olimpiya oyunlarında uğurlu çıxışları və qazandıqları qələbələrin nəticəsidir ki, Azərbaycan bu il ilk dəfə keçirilən Avropa Oyunlarına ev sahibliyi edəcəkdir.

Azər Zeynalov bu münasibətlə bütün idmançıları təbrik etmiş, naxçıvanlı idmançılara Avropa Oyunlarında uğurlar arzulamışdır.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasında da idmanın inkişafı daim Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun himayəsi, diqqət və qayğısı əhatəsindədir. Artıq muxtar respublikada da beynəlxalq idman yarışlarının keçirilməsi və bu yarışlarda naxçıvanlı idmançıların uğurlar qazanması ənənə halını almışdır.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədri Azər Zeynalov ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş sərbəst güləş üzrə muxtar respublika çempionatının sağlam mübarizə şəraitində keçəcəyinə əminliyini bildirmiş və yarışı açıq elan etmişdir.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir.

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının çıxışları olmuşdur.

Sonra ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş sərbəst güləş üzrə muxtar respublika çempionatının görüşlərinə start verilmişdir. Qeyd edək ki, çempionatda 15 çəki dərəcəsində 126 idmançı mübarizə aparır. İki gün davam edəcək yarışlarda qalib gələn idmançılar diplom və qiymətli hədiyyələrlə mükafatlandırılacaqlar.

**"Şərq qapısı"**

## "Heydər Əliyev gənclər məktəbi"nin dinləyiciləri Heydər Əliyev Muzeyində olublar



*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirliklərinin və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə Gənclər və İdman Nazirliyi yanında fəaliyyət göstərən "Heydər Əliyev gənclər məktəbi"nin dinləyiciləri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə Heydər Əliyev Muzeyində olublar.*

Dinləyicilərə məlumat verilib ki, Heydər Əliyev Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il 18 fevral tarixli Sərəncamı ilə yaradılıb və 1999-cu il mayın 10-da fəaliyyətə başlayıb. Bu gün Azərbaycan Respublikasında xalqımızın böyük oğlu Heydər Əliyevin adını daşıyan 50-dən çox muzey və mərkəz fəaliyyət göstərir. Bunlar içərisində Naxçıvandakı Heydər Əliyev Muzeyi xüsusi yer tutur. Hələ ulu öndərin sağlığında yaradılan muzeydə görkəmli dövlət xadimi Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinin müxtəlif dövrlərinə həsr olunmuş eksponatlar, eləcə də dahi şəxsiyyətin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə qəbul etdiyi müxtəlif tarixi sənədlər toplanılıb. Hazırda muzeydə 4500-dən çox eksponat vardır. İndiyədək muzeyi 250 mindən çox tamaşaçı ziyarət edib.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin həmişə gənc nəslə qayğı göstərdiyi diqqətə çatdırılaraq vurğulanıb ki, dahi rəhbər Azərbaycanı gənclər ölkəsi, gəncləri ölkəmizin gələcəyini quracaq böyük qüvvə hesab edərək gənclər siyasətini ölkənin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirib. Onların mükəmməl təhsil alması, intellektual səviyyəli kadrlar kimi yetişdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirib. Bütün bunlar gənclərimizin müstəqilliyimizə, dövlətçiliyimizə sədaqət ruhunda formalaşdırılmasında mühüm rol oynayıb.

Qeyd olunub ki, ulu öndərin müəyyənləşdirdiyi dövlət gənclər siyasəti bu gün ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda uğurla həyata keçirilir. Gənclərin sağlam mühitdə böyümələri və vətənpərvər ruhda tərbiyə edilmələri, yüksək səviyyədə təhsil almaları, onların cəmiyyətdə layiqli yer tutmaları üçün ardıcıl tədbirlər görülür. Muxtar respublikamızda gənclik mərkəzlərinin, kitabxanaların, mədəniyyət evlərinin, idman komplekslərinin gənc nəslin istifadəsinə verilməsi regionda sağlam və vətənpərvər gəncliyin yetişdirilməsinə xidmət edir.

Sonra dinləyicilər muzeyin ekspozisiyası ilə tanış olublar.

## Növbəti seminar-müşavirə Şahbuz rayonunda keçirilib

*Dünən Şahbuz Şəhər Mərkəzində "Bələdiyyə orqanlarında qanunçuluğa əməl olunması və qarşıda duran vəzifələr" mövzusunda keçirilən seminar-müşavirəni giriş sözü ilə Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev açaraq rayonda bələdiyyələr üçün yaradılan hərtərəfli şəraitdən danışıb, bu şəraitin müqabilində hər bir bələdiyyənin öz işini günün tələbləri səviyyəsində qurmasının vacibliyini qeyd edib.*



Tədbirdə Naxçıvan Muxtar Respublikasının Ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev çıxış edərək bildirib ki, nazirlik tərəfindən bələdiyyələrə metodik köməkliyin göstərilməsi istiqamətində işlər mütəmadi davam etdirilir. Belə ki, son illər Şahbuz rayonunda da bələdiyyə üzvlərinin iştirakı ilə hüquqi maarifləndirmə tədbirləri keçirilib. Bu tədbirlərdə bələdiyyələrin fəaliyyətinin əlaqələndirilməsi, yerli özünüidarəetmə orqanları arasında əməkdaşlığın gücləndirilməsi, bələdiyyə qanunvericiliyinin öyrənilməsi və tətbiq edilməsi, bələdiyyələrdə kargüzarlıq işlərinin qanunvericiliyin tələblərinə uyğun qurulması ilə bağlı ətraflı məlumat verilib.

Nazir qeyd edib ki, Şahbuz rayonunda fəaliyyət göstərən bələdiyyələrdə qanunvericiliyin təmin olunması və kargüzarlığın müvafiq normativ aktların tələblərinə uyğun aparılmasının öyrənilməsi məqsədilə son 5 il ərzində rayon İcra Hakimiyyəti ilə birlikdə 19 dəfə yoxlama keçirilib və aşkar olunan nöqsanların aradan qaldırılması üçün bələdiyyələrə hərtərəfli metodik köməkliklər göstərilib. Keçirilən bu qədər maarifləndirici tədbirlərə və verilmiş tövsiyə və təkliflərə baxmayaraq, rayon üzrə bələdiyyələrin fəaliyyətində hələ də nöqsanlar və çatışmazlıqlar qalmaqdadır.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasında aparılan genişmiqyaslı abadlıq və quruculuq işləri çərçivəsində bələdiyyələrin müasir iş şəraiti ilə təmin edilməsi, ötən il bələdiyyələrin sırasından 8 nəfərin muxtar respublika rəhbərinin müvafiq sərəncamı ilə "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunması yerli özünüidarəetmə orqanlarına göstərilən dövlət qayğısının bariz nümunəsidir. Bunun müqabilində bələdiyyələr üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidirlər. Bir daha qeyd edim ki, hər bir bələdiyyə qeyd olunanlardan nəticə çıxarmalı və fəaliyyətini qanunvericiliyin tələblərinə uyğun təşkil etməlidir.

Seminar-müşavirəyə Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev yekun vurub.

## Uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin yekun konserti

*Mayın 6-da Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri şagirdlərinin yekun konserti olub.*



Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərindəki büstünü ziyarət edərək önünə gül dəstələri düzüblər.

Konsert proqramından əvvəl Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm naziri Sarvan İbrahimov çıxış edərək dahi rəhbər Heydər Əliyevin mədəniyyətimizin və incəsənətimizin inkişafı və tanıdılmasında misilsiz xidmətlərindən danışıb. Vurğulanıb ki, çoxəsrlik zəngin tarixi olan Azərbaycan mədəniyyətinin bugünkü səviyyəyə yüksəlməsində dahi rəhbər Heydər Əliyevin böyük rolu vardır. Bu gün ölkəmizdə və muxtar respublikamızda ümummilli liderimizin mədəniyyət və incəsənət sahəsində müəyyənləşdirdiyi inkişaf yolu uğurla davam etdirilir; yeni mədəniyyət müəssisələri, konsert salonları, musiqi məktəbləri, muzeylər, kitabxanalar, teatr binaları istifadəyə verilir.

Bugünkü yekun konsertdə rayonlar üzrə fərqlənmiş uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri şagirdlərinin iştirak etdiyini deyən nazir rayonlar üzrə keçirilmiş konsertlərdə fərqlənən şagirdlərə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin fəxri fərmanlarını təqdim etdi.

Konsertdə Babək Rayon Uşaq musiqi məktəbinin xalq çalğı alətləri orkestri, Bəhruz Kəngərli adına Şərur Şəhər Uşaq incəsənət məktəbinin, Naxçıvan şəhərində, Culfa, Kəngərli, Ordubad və Şahbuz rayonlarında fəaliyyət göstərən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri şagirdlərinin və musiqi ansambllarının ifalarında Avropa, rus bəstəkarlarının və görkəmli bəstəkarlarımızdan Üzeyir Hacıbəylinin, Müslüm Maqomayevin, Fikrət Əmirovun, Qənbər Hüseynlinin, Tofiq Quliyevin, Səid Rüstəmovun musiqi əsərləri səsləndirilib. Şagirdlərin ifalarında muğam və xalq mahnıları alqışlarla qarşılanıb.

## Naxçıvan Muxtar Respublikası: *inkişafın 20 ili*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Naxçıvanşünaslıq" Mərkəzində "Naxçıvan" Universitetində "tarix" ixtisası üzrə təhsil alan tələbələr üçün bu mövzuda açıq dərs keçilmişdir.*

Açıq dərsdə mərkəzin elmi katibi Emin Məmmədov bildirmişdir ki, Naxçıvan Muxtar Respublikasında son 20 ildə həyata keçirilən iqtisadi islahatlar qısa dövr ərzində makroiqtisadi sabitliyin bərqərar olmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermiş və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır. Diqqəti cəlb edən əsas məqamlardan biri ondan ibarətdir ki, ötən 20 il ərzində yaradılmış iqtisadi potensial və qazanılmış uğurlar muxtar respublikanın yarandığı 1924-cü ildən 1991-ci ilədək – yəni 67 il ərzində əldə olunanları xeyli üstələyir.

Vurğulanmışdır ki, həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikasını aqrar bölgədən sənaye regionuna çevirmişdir. Bəhs olunan dövrdə tikinti-quruculuq işləri geniş vüsət almış, təhsil, mədəniyyət, səhiyyə, rabitə və digər sahələrin normal fəaliyyətini təmin etmək üçün yeni binalar inşa edilmişdir.

Emin Məmmədov bildirmişdir ki, muxtar respublika sakinlərinin elektrik enerjisindən və təbii qazdan fasiləsiz olaraq istifadəsinin təmin edilməsi son 20 ildə əldə olunan ən böyük uğurlar sırasındadır. Bu istiqamətdə həyata keçirilən tədbirlər muxtar respublikanı enerji idxal olunan diyardan enerji ixrac edən məmləkətə çevirmişdir.

Diqqətə çatdırılmışdır ki, ictimai həyatımızın son 20 ili inkişaf və tərəqqi mərhələsi kimi doğma Naxçıvanımızın iqtisadi və siyasi tarixinin parlaq səhifəsinə çevrilmişdir. Çünki ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət muxtar respublikada dönmədən həyata keçirilir. Bu siyasətə və ulu öndərin quruculuq xəttinə sadiqliyin vəhdətindən doğan uğurlar, nailiyyətlər zaman keçdikcə daha da artacaqdır.

Sonra mərkəzə baxış olmuşdur.

**Xəbərlər şöbəsi**

*İsveçrə vətəndaşları Diane Projer və Marina Morard aprel ayında Naxçıvanda səfərdə olmuşlar. Muxtar respublikanın turizm potensialı, zəngin tarixi-mədəni irsi, təbiəti və müasir inkişafı qonaqlarda böyük təəssürat yaratmışdır. Diane Projer və Marina Morardın səfər təəssüratlarını təqdim edirik.*

## Naxçıvan səfərimizdən bəzi təəssüratlar



2015-ci ilin aprel ayında, Pasxa bayramı ərəfəsində biz iki isveçrəli xanım – birimiz alman dili, digərimiz isə coğrafiya müəllimi, İpək Yolu boyunca səyahətə başladıq. Səyahətimiz bizi Şərq və Qərbin kəsişməsində yerləşən, keçmişin ənənələrindən formalaşıb, lakin gələcəyə yönələn bir ölkəyə – Azərbaycana götürdü. Qapalı yerlər kəşf etmək sevgimiz olduğuna görə, Bakıda bir neçə gün keçirdikdən sonra Azərbaycanın eksklavı olan, Türkiyə, Ermənistan və İranla həmsərhəd Naxçıvan Muxtar Respublikasına səfər etmək qərarına gəldik.

Səfərimiz hər baxımdan yaddaqalan oldu. Səhər erkən təyyarə ilə çatdığımız zaman yaz Günəşi ılıq şəfəqləri ilə gözəl Naxçıvan şəhərini oxşayırdı. Hava limanında gözləyən sürücümüz Niyazi bizi çox səmimiyyətlə qarşıladı. “Grand” oteldə qısa müddət qaldıqdan sonra Niyazi bizi çiçək açan ağaclar və qırmızı lalə sahələrindən keçirərək Ordubada apardı. İran sərhədi yaxınlığında yerləşən bu kiçik şəhərin insanları bizə elə ilk andan rahatlıq hissi bəxş elədi. Mərkəzi meydanda gözəl mənzərəli çayxanada olduq. Bu zaman televiziya verilişi hazırlayan bir jurnalist yaşadığı yerin ən mühüm və maraqlı yerlərinin, eləcə də muzeylərinin siyahısını mehribancasına bizə təqdim elədi və onun məsləhəti ilə biz Əlincə qalasına yola düşdük.

Günortanın istisində sonu olmayan pilləkənləri dırmanmaq üçün bir az səy göstərməli olduq. Niyazi yolun yarısında bizdən ayrıldı. Qalanın zirvəsinə çatanda ətrafda gördüyümüz mənzərə nəfəskəsici idi və bu, fiziki yorğunluğumuzu artıqlamasıyla kompensasiya etdi. Sonra qayaların içində gizlənən Əshabi-Kəhf mağarasına yola düşdük. Naxçıvan şəhərinə geri dönməzdən qabaq kölgəli terrasda bizə çay təklif edildi. Axşam paytaxt küçələrini gəzməyə çıxaraq gözəl şəhər və dağ mənzərəli “Təbriz” otelinin ən üst mərtəbəsində yerləşən restoranda mərcimək supunun dadına baxdıq. Müasir, dinamik, elə o qədər də hüzurlu şəhər mərkəzinin ətrafında şəhər çox səliqə ilə qurulmuşdu. “Grand” otelə geri döndüyümüz zaman xoşbəxtlikdən ingilis dilində səlis danışan və növbəti gün bizə bələdçilik etməyi təklif edən, orada çalışan Elçin adlı şəxslə tanış olduq.

Rahat otelimizdə gecə yaxşı bir istirahətdən sonra Naxçıvanın başqa hissələrini kəşf etmək, keçmişi, adət-ənənələri və gələcək gözləntiləri haqda daha ətraflı öyrənməyi düşünürdük. Sürücümüz bizi oteldən götürdükdən sonra Türkiyə sərhədi istiqamətinə yola düşdük. Yolumuzun üstündəki Qarabağlar kəndində dayanıb, Çingiz xanın nəvəsinin həyat yoldaşı Qudi xatunun şərəfinə ucaldılmış, iki minarə və mavzoleydən ibarət Qarabağlar türbəsini ziyarət etdik. Hətta bizə bürclərdən birinə çıxmağa icazə verdilər ki, buradan Ağrı dağının aydın mənzərəsini görə bildik.

Səfər zamanı biz dünyanın ən qədim duz mədəni olan Duzdağda da olduq. Burada tənəffüs yolu xəstəliklərindən əziyyət çəkənlər üçün sanatoriya fəaliyyət göstərir. Mədənin giriş hissəsində bizə təravətləndirici kəklikotu çayı təqdim edildi, sonra isə mədənin içərisindəki yataq otaqlarına gedən uzun koridorboyu hərəkət etməyə başladıq. Duzlu havanı tənəffüs etmək olduqca təravətləndirici idi. Sonra biz Ermənistan sərhədindən qısa məsafədə hündür dağlıq ərazidə yerləşən, kurort bölgəsi olan Biçənəyə getdik və burada gözəl qış mənzərəsindən zövq aldıq. Bir hissəsi donmuş və ətrafı qarla örtülü göl tamamilə möcüzə idi.

Keçirdiyimiz bu qiymətli anlardan sonra məşhur tarixi abidələrlə tanış olmaq üçün Naxçıvan şəhərinə geri döndük. Burada Möminə xatın və Hüseyn Cavid məqbərələri ilə yaxından tanış olduq. Günün sonunda axşam Bakıya geri dönüş biletimizi almamışdan qabaq Niyazi və Elçin bizi şam yeməyinə dəvət etdilər. Naxçıvanı tərk edərkən burada gördüyümüz gözoxşayan gözəllik, mehriban, qonaqpərvər və səxavətli insanlara görə təəssüflənməyə bilməzdik.

Naxçıvanda səfərimizi yaddaqalan edən hər kəsə dərindən təşəkkür etmək istərdik. Öz ailəmizə, dostlarımıza, həmkarlarımıza və orijinallıq axtaran hər kəsə mütləq Naxçıvana getməyi məsləhət görürük. Ümid edirik ki, Naxçıvan əcnəbi ziyarətçilər üçün əsas səyahət yeri olacaqdır.

## Beynəlxalq şahmat festivalının 5-ci turu başa çatıb

*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş “Naxçıvan-2015” Beynəlxalq Şahmat Festivalının 5-ci turu dünən keçirilən oyunlarla yekunlaşıb.*



“A” turnirinin lideri gürcüstanlı qrossmeyster Levan Pantsulaya bu turda 4-cü pillədə qərarlaşan ukraynalı qrossmeyster Vladimir Onişukla qarşılaşıb. Turnirə iddialı başlayan Levan Pantsulaya bu görüşdən də qələbə ilə ayrılıb. Qazandığı qələbələrlə ikinci pillədə qərarlaşan azərbaycanlı beynəlxalq usta Zaur Məmmədov gürcüstanlı qrossmeyster Luka Paiçadzeni sınağa çəkib və qarşılaşmada rəqiblər xalları yarı bölüblər. Bu turda azarkeşlər azərbaycanlı qrossmeysterlər Rauf Məmmədov-Ülvi Bacarani, fransız qrossmeyster Bakrot Etyen-rusiyalı qrossmeyster Yevgeni Romanov və iranlı FİDE ustası Musavi Seyid Xəlil-rusiyalı qrossmeyster Aleksandr Xalifman duelinə şahidlik ediblər. Bu görüşlərdə Ülvi Bacarani və Aleksandr Xalifman qalib gəldiyi halda, Bakrot Etyen heç-heçə ilə razılaşmalı olub.

Naxçıvanın zəka sahiblərindən FİDE ustası Pərviz Qasımov bu turda azərbaycanlı qrossmeyster Nicat Abbasovla, digər həmyerlimiz, FİDE ustası Ürfan Sevdimalıyev isə gürcüstanlı FİDE ustası Georgi Sibaşvili ilə ağ-qara taxtada üz-üzə gəliblər. Hər iki həmyerlimiz bu turu məğlubiyyətlə başa vurub.

Hazırda “A” turnirinə gürcüstanlı qrossmeyster Levan Pantsulaya 5 xalla liderlik edir. Azərbaycanlı qrossmeyster Ülvi Bacarani, Eltac Səfərli və rusiyalı qrossmeyster Aleksandr Xalifman isə rəqiblərindən 1 xal geridə qalaraq digər pillələrdə qərarlaşıblar.

“B” turnirinin 3 liderindən ikisinin bu turda üz-üzə gəlməsi turnir cədvəlində dəyişikliyə səbəb olub. Belə ki, iki zəka sahibimiz Rəşad Zeynallı və Vəli Zeynalzadə duelində qalib müəyyənləşməyib və bu heç-heçə daha çox Rəşad Zeynallının işinə yarayıb. İran şahmatçısı, aktivində 4 xal olan Behranq Kabudi isə bu turda azərbaycanlı zəka sahibi Nurlan Şabanovla qarşılaşıb. Qrupun favoriti kimi göstərilən iranlı şahmatçı azərbaycanlı zəka sahibini məğlub etməyi bacarıb. Digər həmyerlimiz, 12 yaşlı Məhəmməd Muradlı da bu turu qələbə ilə başa vurub. O, 5-ci turda gürcüstanlı zəka sahibi Georgi Xomerikidən üstün olub. Bu nəticələrdən sonra 5 turda maksimum nəticə toplayan İran şahmatçısı Behranq Kabudi şəriksiz liderliyini davam etdirir. Sonrakı 4 pillədə isə azərbaycanlı şahmatçılar Məhəmməd Muradlı, Rəşad Zeynallı, Vəli Zeynalzadə və Toğrul Həsənzadə qərarlaşıblar – 4,5 xal.

“Naxçıvan-2015” Beynəlxalq Şahmat Festivalının “C” turnirində 5-ci tura lider kimi başlayan Naxçıvan şahmat məktəbinin yetirməsi Kənan Şərifzadə bu turda sumqayıtlı həmkarı Ləman Hacıyeva ilə qarşılaşıb və məğlub olub. Digər həmyerlimiz Siyavuş Bağırov isə Nihad Əsgərova qalib gəlib və aktivindəki xalı 4-ə çatdırıb. Turnir cədvəlinin digər liderləri Mətin Mürsəlli və Altay Eynullayevin duelindən birinci şahmatçı qalib kimi ayrılıb. Hazırda “C” turnirinə 5 xalla Mətin Mürsəlli və Ləman Hacıyeva başçılıq edirlər.

## Karateçilərimiz dünya çempionatından medallarla qayıdıblar

**Son illər beynəlxalq idman yarışlarında qazanılan uğurlar Naxçıvan Muxtar Respublikasında idmana göstərilən diqqət və qayğının bariz nümunəsi kimi diqqəti cəlb edir. İdmançılarımızın dünya və Avropa çempionatlarında daim bayrağımızı yüksəltmələri, himnimizi səsləndirmələri bu sahə ilə məşğul olan insanlarda əlavə motivasiya yaradır. Qazanılan uğurlar uşaq və yeniyetmələrin bu sahəyə yüksək dərəcədə maraq göstərmələrinə səbəb olur.**



Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının iki idmançısı Gürcüstanın paytaxtı Tbilisi şəhərində keçirilən WSKU (Dünya Şotokan Karate Birliyi) üzrə 6-cı dünya çempionatında iştirak edib. Onların hər ikisi iki üslub üzrə çıxış ediblər.

Oğlanlar arasında tatami üzərinə 8 yaşlı Rəşid Süleymanov çıxıb. O, karatenin şotokan üslubu üzrə (8 ballıq sistem üzrə) dünya çempionatının bürünc mükafatını qazanıb. Şobu nihon (2 xallıq sistem üzrə) üslubu üzrə isə Rəşid Süleymanov çempionatı ikinci pillədə başa vurub. Bu, karateçimizin beynəlxalq yarışlarda qazandığı ilk uğur deyil. O, Rusiya açıq çempionatının qalibi olmaqla yanaşı, Türkiyənin Antalya şəhərində keçirilən yarışda 4 kateqoriya üzrə tatami üzərinə çıxıb və hər kateqoriyada mükafatçılar sırasına düşməyi bacarıb.

Tbilisi şəhərində keçirilən dünya çempionatında qızların mübarizəsində təmsilçimiz Günay Süleymanova daha böyük uğur əldə edib. Belə ki, 9 yaşlı karateçimiz hər iki üslubda dünya çempionatını qızıl medalla başa vurub. Qardaşı kimi, Günay da karate-do üzrə Rusiya açıq çempionatının mükafatçısı, Türkiyədə keçirilən beynəlxalq turnirin qalibidir.

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının üzvlərinin bu uğurunu federasiyanın sədr müavini Nəriman Quliyev belə izah edir: “Bu gün muxtar respublikada qazanılan uğurların başlıca səbəbi idmana göstərilən qayğıdır. Federasiya olaraq idmançılarımızın nailiyyətləri bizi sevindirir. Artıq idmanın bu növünə maraq gündən-günə artmaqdadır. Yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlığımızı bildiririk”.

Tbilisidə keçirilən dünya çempionatının mükafatçıları Rəşid və Günayın valideyni İlahəddin Süleymanov övladlarının qazandığı bu uğurun Naxçıvanda idmançılara yaradılan şəraitin nəticəsi olduğunu bildirdi: “Naxçıvan Muxtar Respublikasında idmançıların püxtələşməsi, uğur qazanması və peşəkar bir idmançı olması üçün lazımi şərait yaradılıb. Uşaq və gənclərin idmanla məşğul olması üçün idman kompleksləri, üzgüçülük mərkəzləri yaradılmaqla yanaşı, idmançıların beynəlxalq yarışlarda iştirakı da diqqət mərkəzində saxlanılır. Əlbəttə, lazımi dəstək olmasaydı, övladlarım Gürcüstanda keçirilən beynəlxalq turnirdə iştirak edə və uğur qazana bilməzdilər. İnanıram ki, Rəşid və Günay qarşıdakı illərdə də Azərbaycanın bayrağını beynəlxalq arenalarda dalğalandıracaqlar”.

Ceyhun MƏMMƏDOV

*Qələbə – 70*

## 1941-1945-ci illər müharibəsi veteranları ilə görüş



*Naxçıvan Dövlət Universitetində 1941-1945-ci illər müharibəsi veteranları ilə görüş keçirilib. Faşizm üzərində qələbənin 70 illik yubileyi münasibətilə keçirilən tədbiri Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açıb.*

Qeyd olunub ki, 1941-1945-ci illər müharibəsində Azərbaycan xalqı istər ön, istərsə də arxa cəbhədə misilsiz rəşadət nümunəsi göstərib. Rektor vurğulayıb ki, qələbənin 70 illiyi ərəfəsində 1941-1945-ci illər müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyə görə orden və medallarla təltif olunmuş şəxslərə birdəfəlik maddi yardım verilməsi və növbədə olan bütün veteranların avtomobillərlə təmin olunması ölkə rəhbərinin veteranlara olan qayğısının bariz nümunəsidir.

Tədbirdə universitetin dosenti, tarix üzrə fəlsəfə doktoru Xəzər Hüseynov çıxış edərək 1941-1945-ci illər müharibəsində Naxçıvan Muxtar Respublikasından 30 min nəfərə yaxın oğul və qızlarımızın müharibəyə getdiyini nəzərə çatdırıb. Bildirilib ki, onlar azərbaycanlılardan ibarət 77-ci, 223-cü, 416-cı və 402-ci diviziyalarda döyüş əməliyyatlarında mərdlik və cəsarət nümunəsi göstərərək işğal olunmuş ərazilərin azad edilməsində yaxından iştirak ediblər. Qeyd olunub ki, müharibə başlayandan qısa müddət ərzində respublikada 87 qırıcı təyyarə batalyonu və 1124 müdafiə batalyonu təşkil olunub, 700 minə yaxın insan müharibəyə yola salınıb.

Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Qara Fərzəliyev, şuranın sədr müavini Heydər Heydərov həmin illərdə qazanılan qələbəyə aparan uğurlar, ağır döyüşlər barədə xatirələrini bölüşüblər. Veteranlar ulu öndərimiz Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra veteranlara göstərilən yüksək dövlət qayğısından danışaraq hazırda ölkə Prezidenti cənab İlham Əliyevin bu siyasəti uğurla davam etdirdiyini vurğulayıblar, onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Tədbirdə 1941-1945-ci illər müharibəsini əks etdirən slaydlar nümayiş olunub.

Sonda yubiley münasibətilə veteranlara hədiyyələr verilib.

Mina QASIMOVA

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-45, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 363